*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 411-420*

https://doi.org/10.62837/2025.8.411

**0000-0003-0761-1456**

**MƏRDANLI HUMAY HÜSEYNBALA QIZI**
***Sumqayıt Dövlət Universiteti***
***Dil və ədəbiyyat kafedrasının doktorantı***
***banuuu2010@gmail.com***

# FRİDRİX DÜRRENMATT DETEKTİVİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** Friedrich Dürrenmatt, usyankar yazıçı, ədəbi eksperiment, ənənəvi detektiv, yeni dünya modeli

***Giriş:*** XX əsr bəşər tarixinə dünyəvi faciəvi baxışlar - müharibə, şiddət, texnokratik şüur, ekoloji fəlakət, humanist ideallların böhranı kimi anlayışlar həkk etdi. Dünyanı oxucuya fərqli rakursdan tanıtmağı bacaran detektiv hekayələrin populyarlığı getdikcə azalmağa başladı. Bəlkə də bunun səbəbi, detektiv janrında yeni bir süjet xətti ortaya qoymağın mümkünsüzlüyü və ya praktiki olaraq janrın eksperimentlərdən məhrum olmasında idi. Bu səbəbdən də zamanla, detektiv janrda yazan əsər müəllifləri tənqidlərə məruz qaldılar. Onlar həqiqətləri saxtalaşdırmaqda günahlandırılırdılar.

Bir vaxtlar xarici ədəbiyytaşünaslıqda müasir İsveçrə ədəbiyyatının əslində ümumi Alman ədəbiyyatının bir hissəsi olması barədə, onun müstəqil ədəbiyyat kimi formalaşıb inkişaf edə bilməyəcəyi fikri hökm sürürdü. Lakin belə bir tezis də mövcud idi:Ya Isveçrə yazıçıları ölkədə baş verən mədəni proseslərdən kənarda qalmalı, ya da Alman və Avropa ənənələrinə qoşulmaqla, milli qidalandırıcı dəyərləri itirməli idilər. İsveçrə ədəbiyyatşünasları vəziyyətdən çıxış yolu kimi müxtəlif istiqamətlər göstərirdilər. İsveçrə ədəbiyyatını durğunluqdan çıxarmaq istəyən və xalqın milli kaloriti ilə qidalanan Fridrix Dürrenmatt nəsri, onun detektiv romanları əyalətçiliklə avropalaşma arasında mütənasiblik yaratmaq üçün təqdim edilən kompromiss variantların parlaq nümunəsi hesab olunur. İsveçrənin alman dilli ədəbiyyatında dahi yazıçılardan olan F.Dürrenmattın ədəbi fəaliyyəti XX əsrin 40-cı illərindən sonrakı dövrü əhatə edir. F.Dürrenmatt həm xarici və həm də yerli tədqiqatçılar üçün görkəmli dramaturq, qrotest teatr ustası olaraq qalır.

XIX əsrdə E.A.Ponun "Morq küçəsində qətl" əsəri ilə əsası qoyulan detektiv janr, A.Konan Doylun "Şerlok Holms" silsiləsi ilə klassik detektiv modeli olaraq formalaşdı. Sonradan A.Kristi, J.Simenson kimi yazıçıların əməyi ilə bu janr daha da kütləvi xarakter alaraq, psixoloji çalarların janra daxil edilməsi ilə insan və cəmiyyət qarşıdurmalarını, ədalət, günah məsuliyyət kimi anlayışları özündə təcəssüm etdirdi. XX əsrin əvvəllərindən isə İsveçrə yazıçıları Maks Friş və Fridrix

Dürrenmattın janra yanaşmaları, fəlsəfi, sosial, hüquqi problemlərin bədii obrazlarla detektiv romanlarda əks etdirilməsi bu janrın Avropa ədəbiyyatında nüfuzunu daha da artırdı. Belə ki, tapmaca xarakterli və kriminal hadisələrin sadəcə çözülmə ardıcıllığına əsaslanan ilk mərhələr klassik mərhələ; qapalı mühitdə baş vüerən cinayət hadisələrinə əsaslanan Qızıl dövr; sosial problemlərin, rüşvətin və kriminal aləmdəki reallıqların təsvir olunduğu Qara detektiv dövrü və nəhayət hadisələrə fəlsəfi-psixoloji tərəfdən münasibət bildirən yazıçıların insan və cəmiyyət problemlərini, ədalət və məsuliyyət anlayışlarını ön plana çıxardıqları fəlsəfi-ictimai detektiv dövrü.

XX əsrin I yarısında İsveçrədə tam demokratiya və xüsusi inkişafın mövcudluğu barədə yaranmış milli mifi məhv edən "nahamvar, üsyankar yazıçılar" nəsli formalaşdı. Baxmayaraq ki, İsveçrə I və II Dünya müharibəlrindən kənarda qalmışdı, məhz bu müharibələrin faciəviliyi, həmin yazıçıların dünyagörüşünü formalaşdıran əsas faktor oldu. Bəşəriyyətin və mədəniyyətin tənəzzülünü, varlığın absurdluğunu sübut edən müharibənin eskataloji anlamı ədəbiyyatda yazıçılar tərəfindən yeni dünya modeli və yeni insan konsepsiyasının yaranmasına təsir etdi.

Heç şübhəsiz daim öz yaradıcılığında oxucunun daxili aləmini silkələyən, standart düşüncə tərzini dəyişməyə çalışan Fridrix Dürrenmatt "usyankar yazıçılar" nəslinə aiddir. Məhz bu sıradan olması, Dürrenmattın nəsr əsərlərinin, kütlə ədəbiyyatı kimi tanınan polis romanlarından çox fərqli xüsusiyyətlərə malik olmasını ortaya qoyur. Belə ki, yazıçının əsərlərində dövlətin kollektiv ənənələrə sadiq olan siyasətinə qarşı tənqidi münasibət aydın sezilir. Buna görə də, Alman dilli ədəbi məkanda Fridrix Dürrenmatt,özünəməxsus əsərləri və intellekti ilə dünya ədəbi xəzinəsini zənginləşdirən dramaturq, detektiv ustalarından hesab olunur. Dürrenmatt yaradıcılığından olan "Der Besuch der alten Dame", "Die Physiker", "Der Meteor" adlı komediyalarıxarici tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilmişdir.Lakin onun silsilə detektiv romanları da diqqətdən kənarda qalmamalıvə oxucu tərəfindən mənimsənilməlidir. F.Dürrenmatt dünyanın nizamsızlığı barədə onda formalaşan fikirlərə bütün yaradıcılığı boyu sadiq qalmiş və eyni fikirləri bütün müsahibələrində təkrarlanmışdır. Ümumiyyətlə,təkrarlanan, lakin aktual səciyyəli mövzular Dürrenmatt yaradıcılığı üçün xarakterikdir.

F.Durrenmatt yüksək, fərqli intellektuallığa malik nəsr ustasıdır. Onun nəsrində adi hala çevrilmiş xüsusiyyətlərdən biri mübahisələrin açılmaması, fikir və mülahizələrin inkişaf etməməsidir. İnsan qabiliyyətlərinin son həddini axtarmaqdan usanmayan və bunu "Əsl yazıçı əməyi" adlandıran yazıçı, bu bədii oyunda kamilliyə çatanlardandır. O, insanın yatmış şüurunu oyatmağa, məntiqi nəticə çıxartmağa və gündən-günə qloballaşan, texnikiləşən dünyada insanın dəyərinin nisbi olduğunu ortya qoymağa çalışmışdır. İlk baxışda yazıçının əsərlərində fantastikanın üstünlük təşkil etdiyi görünməkdədir. O, qrotesk situasiyaları sosial qanunlar əsasında qurmağa çalışmış, cəmiyyətdə insanın öz daxili aləmi ilə ümumi maddi rifahı qarşı-

qarşıya qoymuşdur. Buna görə də məhşur detektiv ustası, İsveçrədə “xoşbəxt cəmiyyət”in ənənəvi dəyərlərini bəyənməyən birisi kimi qiymətləndirilmişdir. Yazıçıya xas olan üsyan ruhu, müasir əxlaq normalarını tənqid etmək və stereotiplərdən imtina F.Dürrenmatt nəsrinin problematikasını və bədii xüsusiyyətlərini müəyyənləşdirirdi. Ədəbiyyatşünas V.D.Sedelnikə görə, F.Dürrenmattın yaradıcılığı İsveçrədə mübahisəli ədəbi durum ilə səciyyələnən mədəni proseslərin baş verdiyi dövrü əhatə edir [3. s.19].

Q.Knappın alman ədəbiyyatşünaslığında qəbul olunmuş nöqteyi-nəzərinə əsasən Dürrenmattın yaradıcılığı bir neçə etapdan ibarətdir [4. s.97].

Yazıçının 1943-1951-ci illər ərzində yazdığı qısa hekayə və novellaları “Die Stadt” adlı toplusunda yer alıb. Müəllifin erkən nəsri ilə yanaşı Bazel və Sürix teatrlarında səhnəyə qoyulan “Der Blinde”, “Romulus der Große”, “Die Ehe des Herrn Missisippi” adlı ilk drammatik əsərləri də yarandı. 1951-ci ildə Dürrenmatt həm də “Der Richter und sein Henker” və “Der Verdacht” adlı iki detektiv roman üzərində işlədi.

F.Dürrenmattın yaradıcılığının növbəti dövrü1952-1966-cı illərə təsadüf edir. Bu dövr müəllifin dramaturoloji bacarığının ön plana keçməsi ilə xarakterizə olunur. Eyni dövrdə həm Dürrenmatt “Der Besuch der alten Dame”, “Die Physiker” əsərləri ilə, həm də onun həmvətəni Maks Friş öz yaradıcılığı ilə II Dünya müharibəsindən sonra yaranan boşluğu doldurdular. F.Dürrematt 1954-cü ildə nəşr etdirdiyi "Probleme des Theaters" adlı yazısında, əsas tezis kimi komediyanın cəmiyyətdəki reallığı əks etdirən əsas janr olduğunu irəli sürürdü.

1967-1972-ci illər Dürrenmattın yaradıcılığında üçüncü etapdır. Bu zaman kəsiyində o,dramatik əsərlər olan “Porträt eines Planeten”, “Es steht geschrieben” üzərində işlədi. Amerika səyahətindən qayıtdıqdan sonra “Sätze aus Amerika” adlı publisist esse yazan yazıçı, 60-70-ci illərdə “Porträt eines Planeten” və “Der Mitmacher“ pyeslərinin uğursuzluğu ilə əlaqəli yaradıcılıq böhranı yaşadı.

Yazıçının yaradıcılıq fəaliyyətinin yekunu kimi qiymətləndirilən 1973-1980-cı illər dördüncü etapdır. “Stoffe” məhz bu zamanda yazılan əsərdir. Bundan başqa, 1978-ci ildə İsveçrənin Sürix şəhərində Dürrenmattın rəssamlıq sərgisi baş tutdu. Yazıçının özünəməxsus dünyagörüşü çəkdiyi rəsm əsərlərində də əks olunurdu. Bu hadisə dramaturq üçün böyük əhəmiyyət kəsb edirdi.

Beşinci etap F.Dürrenmattın dramaturgiyadan uzaqlaşması ilə səciyyələnən 1981-1990-cı illəri əhatə edir. Bu dövrə aid olan “Justiz”,“Durcheinandertal” kimi detektiv romanlar, eləcə də, novella, povest və hekayələr fəlsəfi ruhu ilə seçilən əsərlər hesab olunur. G.Knapp məhsur dramaturq və detektiv ustasının fəaliyyətində “Weihnacht” (1943), “Der Folterknecht” (1943), “Der Sohn”, “Der Alte” (1944-45), (1947), “Die Stadt” (1947), “Der Hund” (1951), “Der Tunnel” (1952), “Aus den Papieren eines Wärters” (1952) kimi ədəbi nümunələri 40-50-ci illərin erkən nəsrinə aid etmişdir. “Das Sterben der Pythia” (1976) hekayəsi, “Justiz” (1985) adlı detektiv

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 411-420*

roman, "Minotaurus" və "Der Auftrag"adlı povestlər isə 70-80-cı illərin nəsri hesab olunur [4. s.34].

F.Dürrenmattın nəsri, eyni zamanda dramaturgiyası müxtəlif cərəyan və müasir ədəbi məktəblərin elementlərini özündə birləşdirən mürəkkəb fəlsəfi-estetik hadisədir. Yazıçının nəsr əsərləri bütövlükdə onun yaradıcılığının vacib hissəsidir. Onun detektiv nəsrində olan spesifik xüsusiyyətləri öyrənmədən yaradıcılığını qiymətləndirmək, müəllifin bədii irsi barədə natamam fikir formalaşdırar.

Dürrenmatt qaldırdığı problemlərin çoxşaxəliliyini şərh edərkən "Mən müşahidəçi deyiləm, hər şeyi özüm uydururam.Uydurduğum elementlərlə reallığı göstərirəm" deyirdi [5.169]. Digər ekspressionistlər Kafka və Brextdən fərqli olaraq, F.Dürrenmatt reallığı öz şişirdilmiş uydurmaları əsasında yaratmışdır. Yazıçı tərəfindən həqiqətlər qrotesk səviyyəsinə çatdırılmış, onların dərk olunmayan tərəfləri və görünməyən proseslər cəmiyyət və siyasətin timsalında göstərilmişdir.

F.Dürrenmatt "Der Richter und sein Henker" adlanan detektiv romanında "Xeyir" və "Şər" deyilən iki qüvvəni üz-üzə qoymuşdur. II Dünya müharibəsindən sonra Şərin, geniş beynəlxalq əlaqələri olan nasist cinayətkarlarla eyniləşdirilməsi təbii haldır. Roman bir giriş, üç nəqletmə fazası və sonluqdan ibarətdir. Ümumilikdə 21 bölmədən ibarət olan bədii nümunənin məzmunundan aydın olur ki, mövzu yalnız baş vermiş cinayətin araşdırılması deyil. Detektiv elementlərdən istifadə, eyni zamanda oxucunu oturuşmuş düşüncədən yayındırmaq istəyinə bağlıdır. Bəzi məqamlarda müəllif, klassik detektiv roman xüsusiyyətlərinə sadiq qaldığını hiss etdirir. Romanın cinayətlə başlaması, insanlar haqqında məlumatın və cinayətin baş verdiyi məkanın dəqiqliyi ilə təqdim edilməməsi və s.

F.Dürrenmattı bu sahədə fərqləndirən özünəməxsusluqlardan biri də, oxucunu analitik təhlildən yayındırmaq və onu açılmayan tapmaca üzərində düşünməyə vadar etməkdir. Analitik təhlil və hadisələrin xronoloji ardıcıllıqla işlənməsi isə detektivin janr xüsusiyyətidir. Eyni zamanda, Berlaxın Çansdan gizlətdiyi istintaq sirləri də oxucunun obraza olan güvənini azaldır. Gastmanın gizləndiyi yerin müəyyən edildiyi anda, itin Berlaxa hücüm etməsi də oxucunu yayındırma məqsədi daşıyır.

Roman boyunca, bir çox səhnələrdə Dürrenmattın çaşdırıcı priyomlardan ustalıqla istifadə etdiyini müşahidə edirik. Məsələn, Berlaxın itin hücumuna məruz qaldığı vaxt, səs-küy salmaması normal hal deyil. Oxucuda şübhə yaradan məqamdır. Lakin yazıçı tərəfindən ortaya qoyulan "taleyə inam" yanaşması oxucunun şübhələrini ört-basdır edir. Ümumiyyətlə, Berlaxın davranışları arasında oxucunu təəccübləndirəcək məqamlar çoxdur. Berlaxı digər komissar obrazlarından fərqləndirən cəhət, onun, göl kənarında tapılan maşının Bielə gətirilməsinə göz yumması və ya Çansla söhbətlərində cəsədi görmədiyini bildirməsidir. Romanda bəzi hallarda ən yaxın köməkçisi Çans da onun hadisələrə laqeyd münasibətini anlaya bilmir. Məsələn, onun Çansın hadisə yerinə tək getmək istəyini qəbul etdi və özünün

evdə tək qalacağını bildirdi. Bu məqam Çansın özünə də qəribə göründü. Öz köməkçisini izləmə fürsəti əldə edən komissar Berlax strateji mövqeyi ilə onu çıxılmaz vəziyyətə saldı və bunu romanın sonunda etiraf etdi.

Öz dövründə yaşadığı cəmiyyətin tənqidçisinə çevrilən Dürrenmattın “Hakim və cəlladı” (Der Richter und sein Henker) adlı detektiv romanında hansı ədəbi üsul və ənənələrdən istifadə etməsi diqqət çəkən məqamlardandır. Necə olub ki, onun əsərdə yaratdığı komissar obrazları müxtəlif mədəniyyətlər üçün təkrarolunmaz fiqura çevrilə biliblər? Belə ki, onun detektiv romanlarda yaratdığı obrazlar müxtəlif faktorlarla klassik detektiv qəhrəmanlarından fərqlənir. Məsələn əgər, Şerlok Holms məntiqli və mükəmməl düşüncə sahibidirsə, Dürrenmattın “Hakim və cəlladı” (Der Richter und sein Henker) romanındakı Berlax obrazı ölümcül xəstəliyi olan, cılız, həyatın ziddiyyətləri qarşısında aciz qalan insandır.

Məqalədə, Dürrenmatt nəsrinə xas olan və onu öz dövrünün yazıçılarından fərqləndirən üslub xüsusiyyətləri də araşdırılmışdır. Yazıçının “Der Richter und sein Henker” romanı tədqiqat obyekti kimi götürülərək, klassik detektiv romanlardan həm ədəbi cəhətdən, həm də dilçilik yönümdən quruluş fərqi tədqiq olunur. Bəzi məqamlarda yazıçı, ənənəvi detektiv roman xüsusiyyətlərinə sadiq qalmışdır. Bu da romanların cinayətlə başlamasıdır. Klassik detektiv roman xüsusiyyətlərinə görə, müəllif qəhrəmanlar və cinayətin baş verdiyi məkan barədə dəqiqi məlumat verməməlidir. F.Dürrenmatt da məhz bu prizmadan yanaşaraq, obrazlar haqqında oxucuya ən zəruri məlumatları vermişdir. Məsələn: Cinayət nə vaxt, hansı situasiyada baş vermişdir. “Tvann polisi Klenin, min doqquz yüz qırx səkkizinci ilin noyabrında Lamboinqdən Tvamm dərəsinə gedən yolun qırağında, bir Mersedes tapdı. Hava payızda tez-tez olduğu kimi çox dumanlı idi. Klenin artıq maşının yanından ötüb keçsə də, yenidən qayıtdı. Keçərkən maşının dumanlı şüşəsindən içəri baxdıqda, ona elə gəldi ki, sürücü sükana tərəf yıxılıb. Əvvəlcə onun sərxoş olduğunu düşündü. Çünki hər bir normal insan kimi, ilkin ehtimal olaraq ağlına bu fikir gəldi” [1,s.53].

Kleninin cəsəddən qorxması da, ənənəvi detektiv elementi hesab olunmur: “Buna görə də o, içərisində cəsəd olan maşını hadisə yerindən uzaqlaşdırmağa və Bielə aparmağa qərar verdi”. Ənənəvi detektivdə, istintaqçı adətən cinayət yerinə yenidən qayıtmalı və hadisə yerində dəyişiklik edilməməlidir. Hadisədə yerdəyişikliyindən sonra Komissar Berlaxa məlumat verildi.

Eyni zamanda, oxucunun obraza olan güvənini azaldan daha bi rcəhət, Berlaxın istintaq sirlərini Çansdan gizlətməsidir. İtin Berlaxa hücum etməsi də yazıçı tərəfindən oxucunu yayındırma elementidir: “Birdən böyük bir kölgə, güc və parçalama arzusuyla yanan bir it üzərinə atladı. Heç nə anlamadan, ona tərəf qaçan məxluqdan qorunmaq üçün sol qolu ilə boğazını qapayan yaşlının heç səsi də çıxmadı. Onun fikrincə bu təbii haldır, baş verənlər bu dünyanın qanunlarına uyğundur”. Romanın bu fraqmentində, Berlaxın köməyinə gələn Çans iti güllə ilə

vuraraq, onun həyatını qurtarır. Berlaxın öz evində qolunun sarğılı olduğunu unutmayan oxucu, onun itlə qarşılaşacağı səhnəyə əvvəlcədən hazır olduğunu başa düşür. Eyni zamanda, qəhrəmanın evə gəldikdən sonra silahını çıxarıb stola qoyması da bir işarədir. Bu situasiya "itin hücumuna məruz qalmadan əvvəl onu vura bilərdi" düşüncəsini də formalaşdırır. Beləliklə bəzi detallar üzə çıxdı və oxucu öz düşüncəsində hadisələrin xronoloji ardıcıllığına əsasən, Berlaxın niyə bu şəkildə davrandığını öyrəndi. Yuxarıda qeyd olunduğu kimi, yalnız romanın sonunda Berlax, Çansın iti vurduğu güllə sayəsində, Şmidin də qatilinin məhz o olduğunu sübuta yetirirdi. Çünki, hər iki qurğuşun eyni silahdan idi.

Şahidi olduğumuz bu səhnədə Dürrenmatt çaşdırıcı priyomlardan əharətlə istifadə etmişdir. Berlaxın itin hücumu ilə üzləşdiyi vaxt səs-küy salmaması, oxucuda şübhə yaratmaq üçündür. Ancaq Dürrenmatt oxucunun bu şübhəsini roman boyunca "taleyə inam" yanaşması ilə ört-basdır edir. Beləcə özünü hücumdan qorumaması Berlaxın özünə xas davranışı kimi, Dürrenmattın isə oxucuya verdiyi çaşdırıcı ipucu kimi qiymətləndirilir. Deməli, bu səhnə komissar Berlaxın davranışları arasında oxucunu təəccübləndirəcək ən gözəl situasiyadır. Komissar Berlaxın, göl kənarında içərisində cəsəd tapılan maşının Bielə gətirilməsinə göz yumması və ya Çansla söhbətlərində cəsədi görmədiyini dilə gətirməsi onu tanıdığımız digər komissar obrazlarından fərqləndirir. Romanda bəzi hallarda ən yaxın köməkçisi Çans da onun hadisələrə laqeyd münasibətini anlaya bilmir. Məsələn, onun Çansın hadisə yerinə tək getmək istəyini qəbul etməsi və özünün evdə tək qalacağını bildirməsi Çansın özünə də qəribə görünür. "Evdə qalacam" deməklə Çansı izləmə fürsəti əldə edən komissar Berlax, strateji mövqeyi ilə onu çıxılmaz vəziyyətə saldı. Həm də bunu romanın sonunda etiraf etdi. Beləliklə, davranışları şişirdilən Berlax adlı fiqur romanın sonunadək sirli obraz olaraq qaldı. Yəni, yazıçı müstəntiqin bildiyi bir çox məlumatları oxucuya çatdırmadı. Məhz bu xüsusiyyət F.Dürrenmattı klassik detektivin şablonundan kənarda tutur. Burada ədalətin bərqərar olması dövlətin dünyəvi qanunları ilə deyil, İlahi ədalət vasitəsilə mümkün olmuşdur. Göstərilən səhnələrdən məlum olur ki, XX əsr İsveçrə cəmiyyətinin ən öndə olan tənqidçisi F.Dürenmattın yaradıcılığında cəmiyyət və hüquq sistemindəki çatışmazlıqlar, ədalət prinsiplərinin pozulması və ədalətin nisbiliyi ön plana çəkilir. , Dövlətin hüquq sisteminin heç də həmişə ədaləti təmin etmədikləri ortaya çıxır. Bu faktın əsas göstəricilərindən biri də, müəllifin "Şübhə" (Der Verdacht) romanında tanınmış komissarın həqiqəti, sosial reallıqlar və təsadüflər sayəsində tam sübut edə bilməməsidir. Baxmayaraq ki, o artıq cinayətin izinə düşmüşdür.

Öz dövlətində cəmiyyətin kəskin tənqidçisi olmasına baxmayaraq, Dürrenmatt, İsveçrəli olmayan birinin İsveçrənin siyasi məsələlərinə qarışmasını "Hər kəs öz qapısının ağzını təmizləməlidir" fikri ilə cavablandırmaqla siyasi arenada həm də dövlətinin keşikçisi rolunda çıxış edirdi. [6, səh.61].

Dürrenmatt oxucunu cinayətin kim tərəfindən törədilməsi üzərində deyil,

cəmiyyətdə tam ədalətin mümkünsüzlüyü üzərində düşünməyə vadar edir. Oxucu qarşısında müəyyən sualların cavabsız qalması, cinayətkar tapılsa da, cinayətin mahiyyətinin çözülməməsi bu romanların anti-detektiv adlandırılmasına əsas verir. Beləliklə, Dürrenmatt detektivinin özünəməxsusluğunu aşağıdakı kimi səciyyələndirə bilərik:

- Cinayətin açılmasında təsadüf və qeyri-müəyyənliyin rolu;
- Qəhrəmanların məhdud imkanları və zəif xarakterli olmaları;
- Dövlətin ədalət sistemi və idarəetmə orqanları tənqid edilir, ədalətin nisbi olması göstərilir.
- Romanlarda fəlsəfi-psixoloji. Sosial problemlər qabardılır və günah, məsuliyyət, insan və cəmiyyət münasibətləri ön plana çəkilir.
- Nəhayət, yazıçı klassik detektiv roman çərçivəsini aşaraq, janrın sərhədlərini genişləndirir.

Nəticə etibarilə F.Dürrenmatt detektiv janrı kriminal hadisə çərçivəsindən çıxarmaqla bərabər, onu insanın şüuraltı düşüncəsini oyadan, bəşəri problemləri əks etdirən fəlsəfi-psixoloji forma halına gətirmişdir.

F.Dürrenmatt, həm də avtobioqrafiyasından müəyyən həqiqətləri maskalamaqla, öz xarakterini də romana daxil edə bilən yazıçılardandır. Müəllifin avtobioqrafik məlumatları romana daxil etməsi, özünü iki mərhələdə göstərir. Birinci mərhələdə: yazıçının şəxsi həyat tərzinə aid narsist elementləri, yemək bişirməyə meylli olmasını önə çıxarır. İikinci mərhələdə onun poetik obraz yaratma bacarığı diqqət çəkir. Bəzi məqamlarda özü haqda verdiyi şərhlərə görə Dürrenmatt arxasında güc, dövlət, qadağa və cəza olmayan bir polis kimi insanların ən kiçik davranışlarını belə təhlil edəndir. Ümumiyyətlə, fərqli vəziyyətlərdə insanların fərqli davranışları F.Dürrenmattın həyatı boyunca araşdıracağı bir problem idi.

F.Dürrenmattın "Der Richter und sein Henker" detektiv romanına xas olan özəl xüsusuiyyətlərdən biri də, Yunan mifologiyasına aid olan sözlərdən istifadə etməsidir. Məsələn, bu mənada Şmidə aid olan avtomobilin adı Karondur. Karon isə Hadesin yeraltı ölkəsində ölüləri Akeron çayından keçirən qayıqçının adıdır. Dürrenmatt romanda Şmidin avtomobilini Karon adlandırmaqla, onun "İçində Bielə ölü gətirən" mənasına işarə etmişdir.

"Mehlsuppe" əsas tərkibi un və sudan ibarət olan, xüsusilə İsveçrə və Avstriyada tanınan sadə bir yeməkdir. Bu yemək növünün adı romanın ilk səhnəsində çəkilir. Alfons Klenin yol kənarında dayanan avtomobildə olan adamı otelə aparır və onun sağalması üçün bu yeməyi hazırlayır. Diqqət çəkici məqam: romanda hər hansı bir bölgəyə aid olub şəhər, yemək və geyim adlarını bildirən sözlərin də istifadəsinə rast gəlinir [7, seh. 90-95]. Romanda adlarına rast gəlinən ən məhşur İsveçrə şəhərləri "Bern", "Tvann", "Biel", "Lamboinq"dir. Eyni zamanda Frankfurt və köhnə adı "Konstantinopol" olan İstanbulun adının da romanda öz

əksini tapmasına rast gəlinir. Bu da, komissar Berlaxın öz vəzifəsi ilə əlaqədar tez-tez həmin şəhərlərə səfər etməsidir.

Şmidin mədəni və ziyalı ailədən olmasına işarə edən element isə geyim növü olan şapkadır. Avtomobildə ölü tapılan Şmidin istifadə etdiyi keçə şapka "Filzhut" adlanır. Çansın özünü Şmidə bənzətməsi səhnəsində həmin şapkadan istifadə etdiyinin şahidi oluruq.

Ümumiyyətlə, təhlil olunan romanda kriminologiya sahəsinə aid, ən çox işlək olan sözlər yer alıb. Məsələn: Cəsəd- Leiche, atəş açmaq), "Durchschießen" "Blutiger Fall" (qanlı hadisə), "Der Tote" (ölü), "Wunde" (yara), "Polizeileutnant" (polis leytenantı), "Komissär" (komisar), "Tatort" (hadisə yeri) və s.

***Nəticə:*** Dürrenmattın ən böyük uğurları detektivlə deyil, dramla əlaqələndirilir. Ancaq, müəllifin detektiv romanları onun yaradıcılığının "yan məhsulu" kimi qiymətləndirilə bilməz. Buna səbəb, yazıçının detektiv romanlarında məhşur tragikomediyalardakı kimi ciddi və dünyəvi problemlərin inkişaf etdirilməsidir.

F.Dürrenmattın sələfi hesab olunan Fridrix Qlayzer ilə fikir eyniliyi olsa da, ideyalarını həyata keçirtmə metodları fərqlidir: Dürrenmatt paradokslarla işləməyi, oxucunu, abstraktın başladığı nöqtəyə, məntiqi düşüncənin son həddinə çatdırmağı üstün tutur.

Dürrenmatt detektivə üz tutmaqla oxucuya, cəmiyyətin real problemlərini özündə əks etdirən əsərlər təqdim etmişdir.

## ƏDƏBIYYAT SIYAHISI

1.Дюрренматт Ф. Судья и палач. Москва: Полюс, 1990. 64 с.
2.Дюрренматт Ф.// Нова філологія. Запоріжжя: ЗДУ, 2003. №1 (16) С. 167-172
3. Козаева, Л.П. Слова с разными словаобразовательными структурами в статьях Фридриха
Дюрренматта / Вестник Московскова Университета. Серия 9.Филология,- 2008, №1.С.90-95.
4.Седельник В. Парадоксы и предостережения Фридриха Дюрренматта // -М.: Издательская группа «Прогресс»; Харьков: Фолио, 1997, С. 5-24.
5.Dürrenmatt Fr. Theaterprobleme // Theater-Schriften und Reden.Bd.1,2. Zürich, 1966. 98 S.
6.Göbel H. Friedrich Dürrenmatts politisches Engagement // Humaniora: Germanistica 4. Tradition und Moderne in der Literatur der Schweiz im 20. Jahrhundert. Konferenzbeiträge. Tartu University Press, Göttingen: -2007, 235 S.
7. Knapp G. Friedrich Durrenmatt. Stuttgart, Weimar: Metzler, 1980. 141 s.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 411-420*

**Xülasə**

***Mərdanlı Humay Hüseynbala***

**FRİDRİX DÜRRENMATT DETEKTİVİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ**

***Açar sözlər:*** Fridrix Dürrenmatt, İsveçrə ədəbiyyatı, üsyankar yazıçı, ədəbi eksperiment, ənənəvi detektiv, yeni dünya modeli

Təqdim edilən məqalədə əsərləri dünya tədqiqatçıları tərəfindən geniş şəkildə araşdırılan Fridrix Dürrenmattın detektiv romanlarının unikallığı təhlil edilir. Dünya ədəbiyyatında mühüm irs qoyan A.Kristinin detektiv əsərləri oxucuları cəlb etsə də, dünyaya fərqli baxış bucağı təqdim edən detektiv əəsrlərin populyarlığı getdikcə azalmağa başladı. Bu detektiv janrda eksperimentə yer verilməməsi və yeni süjet xəttinin olmaması ilə bağlı idi. F.Dürrenmatt detektiv romanlarında eksperimentə yer verməklə İsveçrə ədəbiyyatını durğunluqdan çıxardı. Yazıçının unikallığı oxucunun şüuraltı təfəkkürünü oyatmaq, hadisələrdən məntiqi nəticə çıxarmaq, bu xaotik dünyada insan dəyərinin aşağı düşməsini göstərməyindədir. Eyni zamanda yazıçının əsərləri milli-mənəvi dəyərlər və mövzuların çoxşaxəliliyi baxımından da maraqlıdır.

**SUMMARY**

***Merdanli Humay Huseynbala***

**THE SPECIFIC CHARACTERISTICS OF FRIEDRICH DURRENMATT'S DETECTIVE**

***Key words:*** Friedrich Dürrenmatt, Swiss Literature, rebel writer, literary experiment, traditional detective, new world model

This article will analyze the uniqueness of the detective novels of Friedrich Dürrenmatt, whose dramaturgical works are widely studied by the world researchers. Although the detective works of A. Christie, who left a great legacy in the world literature, attracted the reader's attention, the popularity of detecti ve stories that were able to introduce the world to the reader from a different perspective began to decline.

The reason for this was almost no space for experiments in the detective genre and the lack of a new storyline. F. Dürrenmatt rescued Swiss literature from stagnation by giving a lot of space to experiments in his crime novels. It is the uniqueness of the writer to awaken the subconscious mind of a person and to draw logical conclusions from what is happening, to show that human value is cheapened in this chaotic world. At the same time, the author's works are also interesting from the point of view of national and moral values standing against the background of multifaceted topics.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 411-420*

**РЕЗЮМЕ**

***Мерданлы Гумай Гусейнбала***

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ДЕТЕКТИВА ФРИДРИХА ДЮРРЕНМАТТА

***Ключевые слова:*** Фридрих Дюрренматт, Щвейцарская литература, писатель-бунтарь, литературный эксперимент, традиционный детектив, модель нового мира

В данной статье будет проанализирована уникальность детективных романов Фридриха Дюрренматта, драматургические произведения которого широко изучаются мировыми исследователями. Хотя детективные произведения А.Кристи, оставившего большое наследие в мировой литературе, привлекали внимание читателей, популярность детективов, способных представить читателю мир с иной точки зрения, стала снижаться. Причиной тому было почти отсутствие места для экспериментов в детективном жанре и отсутствие новой сюжетной линии. Ф.Дюрренматт вывел швейцарскую литературу из застоя, предоставив в своих криминальных романах много места экспериментам. Уникальность писателя в том, чтобы пробудить подсознание человека и сделать логические выводы из происходящего, показать, что человеческая ценность обесценивается в этом хаотичном мире. В то же время произведения автора интересны и с точки зрения национально-нравственных ценностей, стоящих на фоне многогранной тематики.

**Rəyçi: Fil.ü.e.d., prof. Cəlil Qərib oğlu Nağıyev**